

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 78 (23.490)

23 may 2020-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik

## Rəsmi xronika

Mayın 22-də “Signify” (əvvəlki adı “Philips Lighting”) şirkətinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bu şirkətin baş icraçı direktoru Erik Rondolat, MDB üzrə baş meneceri Erik Benedetti və “Signify” rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilib.

Videokonfransda Azərbaycan tərəfdən Prezidentin köməkçisi Natiq Əmirov iştirak edib.

* * *

Həmin gün Prezident İlham Əliyev Azərbaycan xalqını Ramazan bayramı münasibətilə təbrik edərək deyib: Oruc və ibadətlərinizin Allah dərgahında qəbul olunması diləyi ilə hər birinizə möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 22 may tarixli Sərəncamı ilə Azərbaycanda ətraf mühitin qorunmasında xidmətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları da vardır.

**Cəfərov Qurban Qafar oğlu**
**Əkbərov Dünyamalı Fərrux oğlu**
**Əliyev Mayis Abazər oğlu**

“Tərəqqi” medalı ilə təltif edilmişlər.

## “İxrac ili”nə mühüm töhfə

## “Badamlı” Mineral Sular Zavodu istifadəyə verilib





Naxçıvan Muxtar Respublikası zəngin mineral su ehtiyatlarına malikdir. Bu gün muxtar respublikanın dayanıqlı sosial-iqtisadi inkişafı təbii sərvətlərimizin sənaye üsulu ilə istehsalına şərait yaratmış, Naxçıvan ölkəmizin əsas mineral su ixracatçısına çevrilmişdir. “İxrac ili”ndə “Badamlı” mineral suyunun şöhrətinin geri qaytarılması və yeni zavodun tikilməsi də bu sahədə görülən işlərin davamıdır.

Mayın 22-də Şahbuz rayonunun Badamlı qəsəbəsində “Badamlı” Mineral Sular Zavodu istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev çıxış edərək demişdir ki, muxtar respublikada özəl bölmənin inkişafına hərtərəfli dövlət dəstəyi göstərilir, məşğulluq təmin edilir və əhalinin rifahı yüksəldilir. Son illər muxtar respublikada 77 mindən artıq yeni iş yeri açılmışdır. Hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir, yeni müəssisələrin yaradılması və iqtisadi resurslardan səmərəli istifadə diqqətdə saxlanılır. “Badamlı” Mineral Sular Zavodunun istifadəyə verilməsi bunu bir daha təsdiq edir. Müəssisədə istehsal ediləcək mineral su daxili bazarda tələbatı ödəməklə yanaşı, həm də ölkəmizin digər regionlarına və xarici bazarlara çıxarılacaqdır. Tapdıq Əliyev muxtar respublikada sahibkarlığın inkişafına göstərilən qayğıya və yaradılan şəraitə görə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Sovetlər Birliyi dövründə Azərbaycanın brendi hesab olunan təbii sərvətimiz – “Badamlı” mineral suyunun yeni zavodda istehsalına başlanılması münasibətilə kollektivi təbrik edərək demişdir: “Badamlı” mineral suyu 1947-ci ildən istehsal olunur. İlkin vaxtlar istehsal sadə formada aparılmış və mövcud su ehtiyatından tam istifadə olunmamışdır. Ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 70-ci illərində Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirilən tədbirlər çərçivəsində “Badamlı” mineral suyunun da istehsal həcmi artmış, yeni zavod qurulmuş və məhsulun 90 faizi ittifaq ölkələrinə göndərilmişdir. Qısa müddətdə “Badamlı” mineral suyuna böyük tələbat və rəğbət yaranmışdır. Lakin təəssüflə qeyd etməliyik ki, ötən əsrin 90-cı illərinin acı nəticələri digər sahələr kimi, Badamlı suyunun istehsalına da ciddi ziyan vurmuş, zavodun fəaliyyəti dayandırılmışdı.



Ali Məclisin Sədri demişdir: “Badamlı” mineral suyunun ikinci dəfə sənaye üsulu ilə istehsalına 2009-cu ildə başlanılmışdır. Həmin il Badamlı qəsəbəsindən Naxçıvan şəhərinə qədər su xətti çəkilmiş və yeni zavod istifadəyə verilmişdir. Xarici bazarda Badamlı suyuna tələbatın artması yeni zavodun tikilməsini zəruri etmişdir. Eyni zamanda mineral su ixracına sertifikat verən təşkilatların rəylərində də qeyd olunur ki, mineral sular mənbədən ən çox 3 kilometr məsafəyə daşınaraq istehsal olunmalıdır. Bütün bunlar əsas götürülərək iqtisadi dəyərləndirmə aparılmış və Badamlı qəsəbəsində yeni zavod tikilmişdir. Sovetlər Birliyi dövründə Badamlı qəsəbəsində qurulan zavodda bulağın suyunun 40 faizindən istifadə olunurdu. Bu gün istifadəyə verilən yeni zavodda isə su ehtiyatından 100 faiz istifadə olunacaqdır. Müəssisənin illik istehsal gücü 150 milyon şərti butulkadır. Vaxtilə burada yalnız bir çeşiddə qazlı su istehsal olunurdusa, hazırda 14 çeşiddə və müxtəlif qablaşdırmalarda qazlı, qazsız, eləcə də premium su istehsal ediləcəkdir. Bütün bunlar da muxtar respublikanın ixrac imkanlarının artırılmasına və məşğulluğun təmin olunmasına mühüm töhfədir. Zavodda 72 nəfər işlə təmin edilmişdir. Fəaliyyətin səmərəli qurulması gələcəkdə yeni iş yerlərinin açılmasına və digər təbii sərvətlərimizdən də səmərəli istifadəyə imkan verəcəkdir.

Ali Məclisin Sədri demişdir: İqtisadiyyat Nazirliyi aid qurumlarla birlikdə muxtar respublikanın təbii sərvətlərindən səmərəli istifadəni təmin etməli, yeni müəssisələr fəaliyyətə başlamalı, daxili tələbat ödənilməli və ixracyönümlü məhsul istehsal olunmalıdır. Çünki təbii sərvətlərdən səmərəli istifadə inkişaf deməkdir. Bu gün muxtar respublikada əsas tikinti materiallarına, mineral və içməli suya olan tələbat yerli istehsal hesabına ödənilir. 2009-cu ildən etibarən “Badamlı” mineral suyu 5 ölkəyə ixrac olunur. Lakin yeni zavodun istifadəyə verilməsi muxtar respublikada ixrac imkanlarının genişlənməsinə, büdcə daxilolmalarının artmasına və digər istehsal sahələrinin yaranmasına da imkan verəcəkdir. Zavodda Fransanın “Sidel” şirkətinin ən müasir avadanlıqları quraşdırılmışdır. Bir sözlə, “Badamlı” Mineral Sular Zavodu muxtar respublikanın sərvətidir. Ona görə də kollektiv qurulan avadanlıqlardan və yaradılan şəraitdən səmərəli istifadə etməli, işçilərin təminatı və mütəxəssislərlə işə diqqət artırılmalıdır.

Ali Məclisin Sədri zavodun qurulmasında əməyi və təşəbbüsü olanlara təşəkkürünü bildirmişdir.

Müəssisə ilə tanışlıq zamanı məlumat verilmişdir ki, “Badamlı” mineral su yatağı Badamlı qəsəbəsinin cənub-qərbində, dəniz səviyyəsindən 1274 metr yüksəklikdə yerləşir. Yatağın suyu çoxdebitli 5, azdebitli 20 bulaqdan ibarətdir. Sahəsi 42,5 min kvadratmetr olan zavodun yaradılmasına daxili imkanları hesabına 20 milyon 960 min manat vəsait sərf olunmuşdur. Zavodun 2 mərtəbədən ibarət inzibati binasında 14 iş otağı, server və növbətçi otaqları, iclas zalı, mətbəx,

Ardı 2-ci səhifədə



yeməkxana və digər xidməti otaqlar yerləşir.

Ali Məclisin Sədri zavodu işə salmışdır. Bildirilmişdir ki, zavodda istehsal, filtrasiya, kompressor bölmələri, xammal, hazır məhsul, ehtiyat hissə, nümunə məhsullarının saxlanılması anbarları və laboratoriya vardır. İstehsal bölməsində 3 sudoldurma xətti yaradılmış, Türkiyənin “Ektem” və Fransanın bu sahədə dünya üzrə məşhur “Sidel” şirkətlərinin ən müasir avadanlıqları quraşdırılmışdır. İqtisadiyyat Nazirliyi tərəfindən yeni sudoldurma xətlərinin idxalına 2 halda İnvestisiya Təşviqi Sənədi verilmişdir. İllik istehsal gücü 150 milyon ədəd şərti butulka olan zavodda 14 çeşiddə qazlı və qazsız mineral su istehsal olunacaqdır. Labarotoriyada suyun tərkibini və minerallığını öyrənməyə imkan verən ən müasir avadanlıqlar qurulmuşdur.

Tədbirdə “Badamlı” mineral suyunun istehsal tarixindən bəhs edən film nümayiş olunmuşdur.

Ali Məclisin Sədri kollektivlə görüşmüşdür.

Zavodda işlə təmin olunan Tural Əlizadə demişdir: “Bu gün muxtar respublikanın bütün yaşayış məntəqələri abadlaşdırılır, müasir sosial obyektlər tikilir, yollar çəkilir. Şahbuz rayonunun hər bir kəndində, eləcə də Badamlı qəsəbəsində geniş quruculuq işləri aparılmış, məktəb binası, kənd və xidmət mərkəzləri tikilmiş, yollarımız yenidən qurulmuşdur. Yeni zavodun tikintisi isə iş yerlərinin açılması, onlarla ailənin güzəranının yaxşılaşması deməkdir. Bütün bunlar Ali Məclis Sədrinin sakinlərin rifahının yaxşılaşdırılmasına göstərdiyi qayğının bariz nümunəsidir. Mən də “Badamlı” Mineral Sular Zavodunda işlə təmin olunmuşam. Muxtar respublikada əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində atılan addımları dəstəkləyir, kollektivimiz adından minnətdarlığımızı bildiririk”.

Ali Məclisin Sədri “Badamlı” Mineral Sular Zavodunun muxtar respublikanın inkişafındakı əhəmiyyətini vurğulayaraq demişdir: Yeni zavod yeni iş yerlərinin yaradılması, iş yerlərinin yaradılması isə ailələrin rahat yaşayışının təmin olunması deməkdir. Ona görə də kollektiv qurulan avadanlıqları qorumalı, suyun keyfiyyətli istehsal olunmasına və zavodun səmərəli fəaliyyətinə çalışmalı, mütəxəssis kimi formalaşmalıdırlar. Zavodun imkanları artdıqca, işçilərin yaşayış şəraiti də yaxşılaşacaq, əməkhaqqı artacaqdır. Kollektivin əməyi Naxçıvana, ölkəmizə şöhrət gətirəcəkdir. Vaxtilə zavodun fəaliyyəti dayananda burada işləyənlər də işsiz qalmışdılar. Lakin yeni zavod həm təbii sərvətimizdən səmərəli istifadəyə, həm də yeni iş yerlərinin açılmasına töhfədir.





Zavodda 16 yük maşını, 1 avtobus və 2 xidməti avtomobil vardır. İşçilər nahar yeməyi və xüsusi geyim formaları ilə təmin olunurlar. Ərazi abadlaşdırılmış, həyətdə tutumu 700 ton olan xam su hovuzu tikilmiş, videonəzarət sistemi və transformatorlar quraşdırılmışdır.

Ali Məclisin Sədri ərazidə yaşıllaşdırma işlərinin davam etdirilməsi, keyfiyyətə önəm verilməsi, istehsal və laboratoriya sənədlərinin zavodun internet saytında yerləşdirilməsi ilə bağlı tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## 28 May – Respublika Gününə həsr olunmuş onlayn tədbir keçirilib





Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyinin kollektivi tərəfindən keçirilən tədbirdə çıxış edən Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov milli dövlətçilik tariximizə qızıl hərflərlə yazılmış, Şərqdə, Türk dünyasında və İslam aləmində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixindən, keçdiyi şərəfli yoldan danışıb. Qeyd edib ki, bu il yaradılmasının 102 ili tamam olan ilk müstəqil dövlətimiz 23 ay fəaliyyət göstərsə də, qəhrəman xalqımızın öz müqəddəratını təyin etməyə həmişə qadir olduğunu bütün dünyaya nümayiş etdirib.

Diqqətə çatdırılıb ki, xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizin müstəqillik tarixində mühüm yerə malik olduğunu hər zaman xüsusi vurğulayırdı. Təsadüfi deyil ki, ilk müstəqil dövlətimizin üçrəngli bayrağının ilk dəfə Naxçıvan Muxtar Respublikasında qaldırılması da məhz ulu öndərin adı ilə bağlıdır. Görkəmli dövlət xadiminin müasir Azərbaycan dövlətini 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etməsi ölkəmizin beynəlxalq ictimaiyyətə tanıdılması baxımından da müstəsna əhəmiyyətə malikdir.

Daimi nümayəndəliyin rəhbəri qeyd edib ki, müasir Azərbaycan beynəlxalq müstəvidə öz müstəqil siyasəti və zəngin dövlətçilik ənənələri ilə təmsil olunur. Ümummilli liderin ideyaları və Prezident cənab İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində hazırda beynəlxalq arenada özünə layiqli yer tutan Azərbaycan Respublikası həm müstəqil dövlətçilik ənənələrini yaşadır, həm də öz müstəqil siyasəti ilə fərqlənir. Bütün bunların fonunda iki başlıca nüans özünü göstərir: birincisi, hər kəs aydın dərk edir ki, Azərbaycan xalqı dövlət qurmağı, ona sahiblənməyi və onu müstəqil şəkildə, məharətlə idarə etməyi bacarır. İkincisi, istər həyata keçirilən müstəqil siyasət, istərsə də dövlətçilik ənənələrinin yaşadılması Azərbaycanda dövlət-xalq birliyinin sarsılmazlığını şərtləndirir.

Vurğulanıb ki, xalqımız dövlət müstəqilliyini bərpa etdikdən sonra görkəmli dövlət xadimi Heydər Əliyevin memarı və qurucusu olduğu müasir müstəqil Azərbaycan Respublikası mürəkkəb vəziyyətə, xarici təhdid və təzyiqlərə sinə gərərək öz müstəqilliyini qorumağı bacardı, dövlətçiliyin möhkəmləndirilməsi üçün qətiyyətli tədbirlər görüldü, ölkədə davamlı ictimai-siyasi sabitlik bərpa edildi və torpaqlarımız üzərində tam suverenliyin bərpa edilməsi üçün mübarizə aparılmaqdadır. Hazırda ölkəmizdə əsası ulu öndər tərəfindən qoyulmuş demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesi Prezident cənab İlham Əliyev tərəfindən inamla və uğurla davam etdirilir. Respublikamızda siyasi, iqtisadi və sosial islahatlar dönmədən həyata keçirilir, ölkə iqtisadiyyatı sürətlə inkişaf etdirilir, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün ardıcıl addımlar atılır, vətəndaş məmnunluğu təmin olunur. Bütün bunlar Azərbaycanın getdikcə daha da qüdrətli dövlətə çevrilməsinə və beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin arzusunda olduğu müstəqilliyimizin, azadlığımızın daimi, əbədi olmasına xidmət edir. Bu gün müstəqil Azərbaycan Respublikası ilk müstəqil dövlətimizin siyasi varisi kimi dünya birliyində öz layiqli yerini tutub. Biz hamımız azərbaycanlı olmağımızla, milli, müstəqil dövlətimizlə qürur duyuruq!

Tədbir çıxışlarla davam etdirilib.

**AZƏRTAC**

*Rəqəmsal ödənişlərin tətbiqinin və istifadəsinin genişləndirilməsi iqtisadi dövriyyələri şəffaflaşdırmaqla, nağd pulla bağlı xərclərin, bank və müəssisələrin əməliyyat xərclərinin azalmasına gətirib çıxarır. Bu da, öz növbəsində, vergi bazasının, habelə əhali və müəssisələrin maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsinə, bank sektorunun kreditləşmə və investisiya imkanlarının güclənməsinə və son nəticədə, iqtisadi artıma şərait yaradır.*

## Rəqəmsal ödəniş xidmətləri iqtisadiyyatın əsasını təşkil edir

Elektron xidmətlərin tətbiqinin genişləndirilməsi, dövlət-vətəndaş münasibətlərinin müasir əsaslar üzərində qurulması, rəqəmsal iqtisadiyyatın formalaşdırılması kimi məsələlər ölkəmizdə aktuallıq kəsb etməkdədir. Muxtar respublikada da rəqəmsal ödəniş infrastrukturunun inkişaf etdirilməsi, yeni xidmətlərin tətbiqi və əhatə dairəsinin genişləndirilməsi diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş “2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram”ın da əsas məqsədi əhali, biznes subyektləri və dövlət strukturları arasında nağdsız ödəniş imkanlarının daha da genişləndirilməsi və mövcud infrastrukturun təkmilləşdirilməsi ilə əlaqədar tədbirlərin həyata keçirilməsidir.

Dövlət proqramında 14 bənddən ibarət tapşırıqlar nəzərdə tutulmuşdur. Bu tapşırıqların icrası 2020-ci ilin yanvar-mart aylarında diqqətdə saxlanılmış, mövcud ödəniş infrastrukturunun daha da təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilmişdir. Banklar tərəfindən ticarət, iaşə və digər xidmət obyektlərində 56 təmassız ödəniş etməyə imkan verən POS-terminal və 9 çoxfunksiyalı ödəniş terminalı quraşdırılmışdır.

Proqramda mühüm əhəmiyyət kəsb edən tapşırıqlardan biri ödəniş xidmətləri üzrə tarif siyasətinin optimallaşdırılmasıdır. Bu istiqamətdə “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətində POS-terminal dövriyyəsi olan hər bir sahibkara dövriyyəsinə uyğun olaraq təminatsız 15 faizlə biznes kreditləri verilir.

Dövlət proqramında nəzərdə tutulan tədbirlər muxtar respublikada nağd dövriyyənin həcminin minimuma endirilməsi və nağdsız ödəniş mühitinin genişləndirilməsi üçün yeni imkanlar yaradır. Bu istiqamətdə mühüm tədbirlərdən biri də özəl sektorda işçilərin əməkhaqlarının nağdsız formada ödənişi prosesidir. Proqramın qüvvədə olduğu müddətdə bu prosesin başa çatdırılması nəzərdə tutulur. Cari ilin yanvar-mart aylarında özəl sektorda 35 vergi ödəyicisi üzrə, ümumilikdə, 253 işçinin əməkhaqqının ödəniş kartları vasitəsilə ödənilməsi təmin edilmişdir.

Elektron xidmətlər müasir dövrümüzün, gündəlik həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Qloballaşma və inteqrasiya prosesləri ilə xarakterizə olunan indiki dövrdə hər hansı sahədə davamlı və dinamik uğurları elektron xidmətlərsiz təsəvvür etmək qeyri-mümkündür. Qlobal məkana sürətlə inteqrasiya olunan muxtar respublikamızda da elektron xidmətlərin tətbiqi və genişləndirilməsi istiqamətində ardıcıl addımlar atılır. Ötən dövrdə muxtar respublikada fəaliyyət göstərən aviakassalarda quraşdırılmış 10 POS-terminal vasitəsilə 100 min 645 manat, avtovağzallarda quraşdırılmış 5 POS-terminal vasitəsilə 1462 manat məbləğində nağdsız qaydada bilet satışları həyata keçirilmişdir.

Nağdsız ödənişlərin əhatə dairəsini genişləndirən mühüm faktorlardan biri də kart sahibləri arasında həvəsləndirici tədbirlərin keçirilməsidir. Bu tədbirlər əhalinin rəqəmsal ödəniş xidmətlərindən istifadə etməsi və nağdsız ödənişlərin həcminin artırılması sahəsində hərəkətverici rol oynayır. 3 fevral 2020-ci ildə “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı həvəsləndirici tədbirin 12-ci tirajı keçirilmiş, 400 manatdan yuxarı nağdsız ödəniş aparan 412 vətəndaşa ödədikləri məbləğə müvafiq olaraq 25 min manat dəyərində müxtəlif hədiyyələr təqdim olunmuşdur. Ümumilikdə, birinci rübdə 2 min 989 nəfərə 190 min manat məbləğində hədiyyələr təqdim edilmişdir.

**“Şərq qapısı”**

# Vəzifə borcuna sədaqət olanda

***Mart ayının 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində dünyada pandemiya elan olunan virusun muxtar respublika ərazisində yayılmasının qarşısının alınması ilə bağlı tədbirlərə həsr olunmuş müşavirə keçirilmiş, Ali Məclisin Sədri tərəfindən aidiyyəti nazirlik, komitə, agentliklər qarşısında müvafiq vəzifələr qoyulmuşdur.***

Adıçəkilən müşavirədə muxtar respublikaya girişlərin ciddi nəzarətə götürülməsini vurğulayan Ali Məclisin Sədri Daxili İşlər Nazirliyinə də bir sıra tapşırıqlar vermişdi. Həmin tapşırıqların daxili işlər orqanlarında qüsursuz icra edilməsi məqsədilə, ilk növbədə, nazirlikdə əməliyyat qərargahı yaradılaraq daxil olan məlumatlara operativ reaksiya verilməsi üçün qərargah üzvləri arasında vəzifə bölgüsü aparılıb. Nazirlikdən aldığımız məlumata görə, ötən dövr ərzində polis əməkdaşları gücləndirilmiş rejimdə çalışaraq virusun muxtar respublikada yayılmasının qarşısının alınmasında əsl fədakarlıq göstəriblər. İstər təhlükəsizlik, istərsə də tibbi və sosial baxımdan verilmiş tapşırıqlar pandemiya ilə bağlı vəziyyəti tam nəzarət altında saxlamağa imkan yaradıb, əhali arasında narahatçılıq və gərginlik halları baş verməyib, gündəlik ərzaq məhsullarının, eləcə də digər tələbat mallarının təminatında hər hansı çatışmazlıq yaranmayıb. Bütün bunlar bir daha sübut etdi ki, muxtar respublikada hər bir sakinin qayğısına qalınır.

Məlumatda deyilir ki, insan sağlamlığının ön planda olduğu muxtar respublikada ötən dövr ərzində Türkiyə Respublikasından və Bakı şəhərindən gələn şəxslər, o cümlədən onlar vasitəsilə yoluxmaya məruz qalan muxtar respublika sakinləri və yaxın əlaqələri barədə daxil olan informasiyalar dərhal təhlil olunub, həmin şəxslər tam müəyyənləşdiriləraq ətrafdan təcrid edilərək və ciddi karantin nəzarətində götürülüblər. Belə ki, ötən dövr ərzində daxili işlər orqanları tərəfindən, ümumilikdə, 7450 nəfər vətəndaşımız karantin nəzarətində saxlanılıb. Onlar içərisində Türkiyə Respublikasından gələn və ölkəmizin digər regionlarından olan 160 nəfər vətəndaşımız Duzdağ Fizioterapiya Mərkəzində, 417 nəfər isə Şərur rayonunda yerləşən karantin mərkəzində ciddi rejimdə saxlanılıb, karantin müddəti başa çatdıqdan sonra isə çarter reyslər vasitəsilə Bakı şəhərinə yola salınıb. Yoluxan və onlarla əlaqəsi olmuş muxtar respublika sakinləri, o cümlədən Türkiyə Respublikasından və Bakı şəhərindən qayıdan 6873 nəfər vətəndaşımız isə 2749 ünvan üzrə 21 gün ev şəraitində karantin nəzarətində saxlanıldıqdan sonra tibbi müayinədən keçirilib və sağlamlıqlarına dair müsbət rəy verildikdən sonra karantin nəzarətindən çıxarılıb. Həyata keçirilən tədbirlər nəticəsində ötən dövr ərzində muxtar respublika sakinləri arasında virusa yoluxma halları minimum səviyyədə qeydə alınıb.

Bunlarla yanaşı, karantin rejimi ilə əlaqədar fəaliyyətləri müvəqqəti dayandırılmış, eləcə də müəyyən vaxt məhdudiyyəti tətbiq olunmuş ticarət və ictimai iaşə obyektlərinin karantin qaydalarına riayət etmələrinə ciddi nəzarət olunmuşdur.

Nazirlikdən verilən məlumatda o da diqqətə çatdırılır ki, qeyd olunanlardan əlavə fərdi nəqliyyat vasitələrinin zərurət yaranmadan istismarına məhdudiyyətlər tətbiq edilib, marşrutlar üzrə ictimai nəqliyyat vasitələrinin sayı azaldılaraq, taksilərin müəyyən qrafik üzrə hərəkəti təmin olunub. Mövcud pandemiya ilə əlaqədar əhalinin psixoloji vəziyyəti və həssas zaman keçidində olması nəzərə alınıb, inzibati tənbeh tədbirlərinin həyata keçirilməsində güzəştlər tətbiq olunub, profilaktikaya geniş yer verilib.

Ötən dövrdə karantin rejimini pozduqlarına görə 142 nəfər şəxs barəsində İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən inzibati protokol tərtib edilib və onlardan 5 nəfəri məhkəmə qərarı ilə inzibati qaydada həbs olunub.

Məlumatda deyilir ki, may ayının 2-dən sonra bir sıra tədbirlər həyata keçirilib, karantin rejiminin yumşaldılması ilə əlaqədar fərdi nəqliyyat vasitələrinin hərəkətinə tətbiq edilmiş məhdudiyyətlər tam aradan qaldırılıb. Şəhərdaxili və rayonlararası fəaliyyət göstərən ictimai nəqliyyat vasitələrinin və taksilərin hərəkətinə tətbiq olunmuş məhdudiyyətlər isə qismən yüngülləşdirilib. Bir çox ictimai iaşə və ticarət obyektlərinin məhdudiyyətsiz fəaliyyəti təmin olunub. Fəaliyyətləri müvəqqəti dayandırılmış (şadlıq evləri, idman və oyun zalları, ofistipli hazırlıq kursları, turizm xidməti ofisləri, "Cahan" Ticarət Mərkəzindəki bəzi geyim mağazaları və sair), eləcə də müəyyən vaxt məhdudiyyəti tətbiq olunmuş ticarət və ictimai iaşə obyektlərinin karantin qaydalarına riayət etmələrinə nəzarət davam etdirilir. Bütün bu tədbirlərdə polis əməkdaşlarının üzərlərinə düşən tapşırıqların öhdəsindən gəlmələri üçün görülən tədbirlər yetərli rol oynayır. Polis əməkdaşları da bundan səmərəli istifadə edirlər.

Biz də bir vətəndaş olaraq ötən dövrdə muxtar respublikanın polis orqanlarında çalışan əməkdaşların gücləndirilmiş iş rejimində insanlarımızın sağlamlığı naminə fədakar fəaliyyətlərinin şahidiyik və onlara minnətdarlığımızı çatdırırıq. Belə fəaliyyət hər birimizdə onların bundan sonra da dövlətimizə, dövlətçiliyimizə sədaqət nümayiş etdirəcəklərinə, qarşıya qoyulan hər bir vəzifəni layiqincə yerinə yetirəcəklərinə inamımızı daha da artırır.

**Muxtar MƏMMƏDOV**

## Naxçıvan ali təhsilinin tarixində ilk layihə



Naxçıvan Dövlət Universitetində müasir tədris korpuslarının istifadəyə verilməsi, yeni infrastruktur layihələrinin həyata keçirilməsi peşəkar kadrların hazırlanmasına öz müsbət töhfəsini verməkdədir. Yaradılan şərait nəticəsində tələbə qəbulu üzrə plan yerlərinə olan maraq ilbəil artıb, yüksək bal toplayan tələbələrin məhz universiteti seçmələri üçün imkanlar genişlənib. Xarici tələbələrin sayında əldə edilən əhəmiyyətli artım ali təhsil ocağının beynəlxalq əlaqələrinin düzgün və sistemli idarə edilməsi nəticəsində mümkün olub. Hazırda bu ali təhsil ocağı xarici tələbələrin müraciəti və qəbul sayına görə ölkə üzrə öncüllüyünü qoruyur.

Universitetin növbəti uğurlu layihəsi tədrisi xarici dillərdə olan ixtisasların açılması ilə bağlıdır. Buradakı mövcud kadr potensialının, maddi-texniki bazanın verdiyi imkanlar bu sahədə uğurlu kadr hazırlığının tam mümkünlüyünü təmin edir. Ali təhsil ocağının beynəlxalq rəqabətlilik layihələrində səmərəli iştirakı, ikili diplom məsələləri kimi gələcək strateji hədəfləri tədrisi xarici dillərdə aparılacaq ixtisasların fəaliyyətə başlamasını zəruri edir. Bütün bunlar nəzərə alınmaqla 2020-2021-ci tədris ilində İqtisadiyyat ixtisası üzrə ingilis dilində tədrisin aparılması planlaşdırılıb.

İqtisadiyyat və idarəetmə fakültəsinin bazasında yaradılmış və tədrisi ingilis dilində olacaq İqtisadiyyat ixtisasının tədris planları artıq təsdiq edilib, fənlər ingilis dilli müəllimlər arasında bölüşdürülüb. Dərs bölgüləri mövcud müəllim potensialı ilə bərabər, xaricdə yüksək təhsil almış məzunlar hesabına təmin edilib. Fakültənin nəzdində yaradılmış müstəqil iqtisadi kitabxana fonduna ingilis dilli ixtisas ədəbiyyatları daxil edilib, dərs prosesi üçün auditoriyalar müəyyənləşdirilib.

Müəllim və tələbələrin akademik mobillik proqramı çərçivəsində Avropa universitetləri ilə əməkdaşlıq yeni ixtisasın tədrisində əsas prioritet kimi müəyyənləşdirilib. Ali təhsil ocağının mövcud imkanları gələcəkdə bu ixtisasların sayının artırılmasına tam zəmanət verir. Universitet məzunlarının karyera imkanlarının da dəyərləndirildiyi bu layihədə xarici tələbələrin də universitetdə təhsil almaq imkanlarının artacağı proqnozlaşdırılır.

**Səadət ƏLİYEVA**

## Naxçıvanbankda "İnternet bank" xidməti istifadəyə verilib



Muxtar respublikamızın işgüzar həyatında mühüm rola malik olan Naxçıvanbank hər gün yenilənən innovativ xidmət növləri ilə müştərilərin rahatlığını və tərəfdaşlarının korporativ maraqlarının ödənilməsinə çalışır. Müasir texnologiyaların tətbiqi ilə həyata keçirilən yeni "İnternet bank" xidməti də, bu mənada, Naxçıvanbankın müştəriləri üçün məsafədən bir sıra bank xidmətlərinə onlayn rejimdə əlçatanlığı təmin edəcək.

"İnternet bank" günümüzdə çox populyar olan bank xidmətlərindən biridir. Artıq müştərilər banka getmədən onlara lazım olan xidmətlər üçün internetin imkanlarından istifadə edir, zamana qənaət, sosial izolyasiyaya əməl etməyə çalışırlar. Belə xidmətlər isə müasir dövrdə cari hesab, kart, əmanət, kredit hesabı sahiblərinin internet vasitəsilə öz hesabları üzrə aparılan pul dövriyyələrini izləməsi, ödənişlərin tarixçəsini görmək, kartdan-karta pul köçürülməsi, əmanət məbləğini artırmaq, bank daxili və xarici pul köçürmələri kimi geniş saydadır. Naxçıvanbank da müasir texnologiyalar vasitəsilə müştərilərinə banka gəlmədən bir sıra bank xidmətlərini kompüter və ya mobil telefon vasitəsilə internet üzərindən həyata keçirməsi üçün bu xidməti təklif edir. Bunun üçün bankın rəsmi internet səhifəsində yerləşdirilmiş "İnternet bank" bölməsinə daxil olmaq kifayətdir.

Bankdan aldığımız məlumata əsasən "İnternet bank" xidmətinə qoşulmaq üçün müştərilər şəxsiyyət vəsiqəsi ilə birlikdə bankın müvafiq xidmət nöqtəsinə müraciət etməlidirlər. Müraciət əsasında müvafiq sənədlər imzalandıqdan sonra xidmət aktivləşdirilir və xidmətdən istifadə üçün müştəriyə SMS vasitəsilə istifadəçi adı və şifrə göndərilir. Qeyd edək ki, Naxçıvanbankın bu xidməti tamamilə ödənişsizdir.

**Əli CABBAROV**

## Naxçıvan Qızlar Liseyində istedadlı və bacarıqlı Azərbaycan xanımları formalaşır



***Muxtar respublikamızda qızların təhsil almalarına xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, əvvəllər ali məktəblərə qəbul imtahanlarında ən yuxarı nəticə göstərənlər arasında oğlanlar üstünlük təşkil edirdisə, son illərdə onların sırasında qızların da sayı xeyli artıb. Bu baxımdan Naxçıvan şəhərində fəaliyyət göstərən, uğurlarını ildən-ilə artıran Naxçıvan Qızlar Liseyi nümunəvi təlim-tədris prosesi ilə seçilir. Liseyin fəaliyyətində əsas məqsəd burada oxuyan hər bir şagirdin gələcəkdə təhsilini hansı istiqamətdə davam etdirməsindən asılı olmayaraq, savadlı, vətənpərvər, dünyagörüşlü, Azərbaycan qadınının yüksək mənəvi keyfiyyətlərini özündə daşıyan, milli-mənəvi dəyərlərimizə sadiq və milli adət-ənənələrimizi yaşadan, tanıdan xanım kimi böyüdülməsidir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində liseydə zəruri tədris şəraiti yaradılıb. 608 şagird yerlik lisey binası 2011-ci ildə yenidən əsaslı təmir olunaraq müasir tədris avadanlıqları ilə zənginləşdirilib. Burada 29 sinif otağı, 3 laboratoriya, 4 elektron lövhəli sinif, internetə çıxışı olan 2 kompüter otağı, müəllimlər otağı və idman zalı yerləşir. Bundan başqa, binada 2 şahmat otağı (otaqlardan biri elektron lövhəlidir) da təşkil olunub.

Liseydə tədrisin keyfiyyətinin artırılması məqsədilə zəngin kitabxananın yaradılması şagirdlərin biliklərinin, intellektual səviyyələrinin yüksəldilməsinə geniş imkanlar açıb. Təhsil ocağındakı kimya, biologiya və fizika laboratoriyaları müvafiq fənlər üzrə dərslərin tədrisinin yüksək səviyyədə aparılmasına şərait yaradır. Liseydə fəaliyyət göstərən ilk tibbi yardım kabinəsi lazımi avadanlıqlar ilə təchiz olunub. Kabinədə şagirdlərə ilk tibbi yardımın sirləri öyrədilir. Təhsil ocağında, həmçinin musiqi dərslərinin yüksək səviyyədə tədrisi üçün piano ilə təmin olunmuş musiqi otağı da mövcuddur.

Hazırda liseydə 380 şagird təhsil alır. 60 müəllim şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olur. Müəllimlərdən 4-ü "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülüb, 1-i "Tərəqqi" medalı ilə təltif edilib, 2-si isə "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibi olub.

Liseydə şagirdlərə hər həftə mənəvi dəyərlərlə bağlı keçilən həmin seminarlarda da qızlara ailə dəyərləri, əxlaqi və insani keyfiyyətlər aşılanır. Tədris müəssisəsində həm məişət işlərinin öyrədilməsi, həm də milli mətbəximizin aşılanması məqsədilə "Kulinariya", tarixən ana və nənələrimizin yaratdıqları milli naxışların yaşadılması və öyrədilməsi üçün "Tikiş-toxuculuq", qədim el sənəti olan xalçaçılığın öyrədilməsi və yaşadılması məqsədilə "Xalçaçılıq" dərnəkləri təşkil edilib. Bütün bunlar böyüməkdə olan gənc qızların hər birinin gələcəkdə gözəl ana və ailə qayğıları ilə yaşayan əsl qadın kimi formalaşmasında mühüm əhəmiyyətə malikdir.

Liseydə dərslər ümumtəhsil məktəblərinin tədris proqramı əsasında keçilir. Şagirdlər isti yemək və çayla təmin olunurlar. Günün ikinci yarısında keçilən məşğələlərdə şagirdlərə növbəti günün dərslərinin hazırlanmasında köməklik göstərilir.

Burada vaxtaşırı olaraq şagirdlərin muzeylərə ekskursiyası, şeir, rəsm, inşa yazı və dram müsabiqələri, əl işlərindən ibarət müxtəlif sərgilər təşkil edilir. Eyni zamanda muxtar respublika üzrə təşkil edilən yaradıcılıq sərgilərində də liseyin şagirdləri fəal iştirak edirlər.

Məktəbdə şagirdlər asudə vaxtlarını dəyərləndirmək üçün şahmatla və idmanla da məşğul olurlar. Liseyin idmana böyük maraq göstərən şagirdlərinin müxtəlif yarışlarda iştirakları təmin edilir.

Tədrisin yüksək səviyyədə qurulmasının nəticəsidir ki, liseyin hər il ali məktəblərə qəbul imtahanında yüksək bal toplayan məzunlarının sayı artır. Son 5 il ərzində məktəbin məzunlarından 49-u 500-700 intervalında bal toplayıb. Lisey fəaliyyətə başlayandan bu tədris ilinədək məzunlardan 5-i qızıl, 3-ü gümüş medala, 16-sı isə fərqlənmə attestatına layiq görülüb. 2016-2017-ci tədris ilinin məzunu Günnar Fərəcova ali məktəblərə qəbul imtahanlarında 691 bal toplayaraq Prezident təqaüdünə layiq görülüb və topladığı bala görə muxtar respublika birincisi olub. Ötən tədris ilində isə liseyi 48 məzun bitirib ki, onlardan da 1-i qızıl, 1-i gümüş medala, 4-ü fərqlənmə attestatına layiq görülüb, 13-ü isə 500-700 intervalında bal toplayıb.

Bu il fənn olimpiadalarında XI sinif şagirdləri Adilə Babayeva Riyaziyyat fənni üzrə I, Türkan Qurbanova Riyaziyyat və Jalə Rəhimli isə Biologiya fənni üzrə II yerə sahib olublar. Həmçinin Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və AMEA Naxçıvan Bölməsinin birgə təşkilatçılığı ilə keçirilən "Sabahın tədqiqatçıları" layihəsində liseyin IX sinif şagirdi Nuray Məmmədovanın "Naxçıvan Muxtar Respublikasının bəzi yeraltı sularının minerallığının təyini" adlı layihəsi Moskvada keçirilən məktəblilərin "Elmə start" VIII Beynəlxalq elmi-tədqiqat və yaradıcılıq müsabiqəsində onlayn şəkildə iştirak edərək II yerin qalibi olub, medal və diploma layiq görülüb.

Liseydə təlim ümumi orta və tam orta təhsil pillələrində aparılır. Ümumtəhsil məktəbinin ibtidai təhsil pilləsini yaxşı və əla qiymətlərlə başa vuran qızların liseyə qəbulu hər tədris ilinin sonuna yaxın Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən seçmə üsulla, imtahan yolu ilə aparılır.

2020-2021-ci tədris ilində V sinifdə təhsil alacaq qız şagirdlərin liseyə sənəd qəbuluna artıq start verilib. Sənəd qəbulu mayın 29-dək davam edəcəkdir. İyunun 11-də test formatında müsabiqə yolu ilə Azərbaycan dili, Riyaziyyat və İngilis dili fənləri üzrə keçiriləcək imtahanlarda ən yüksək nəticə göstərən 60 şagird liseyə qəbul olunacaqdır.

*Hər il liseyə müraciət edənlərin sayı əvvəlki illərə nisbətən daha da artmaqdadır. Ümidvarıq ki, ötən illərdə olduğu kimi, bu il də imtahanlarda fəallıq müşahidə edəcəyik. Müsabiqədə iştirak etmək üçün səylə hazırlaşan hər bir şagirdə uğurlar arzulayırıq.*

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***



# Ekologiyanı qorumaq sağlamlığımıza təminatdır

*Ümummilli lider Heydər Əliyevin 2001-ci il 23 may tarixli Fərmanı ilə ölkədə ekologiya, ətraf mühitin mühafizəsi, hidrometeorologiya, geologiya, meşəçilik və balıqçılıq sahəsində vahid dövlət siyasətini həyata keçirmək məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi, analoji olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 25 may tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il 16 may tarixli Sərəncamına uyğun olaraq hər il may ayının 23-ü ölkəmizdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçilərinin peşə bayramı kimi qeyd edilir.*

Ötən illərdə ekoloji problemlərin həll edilməsi məqsədilə xüsusi dövlət proqramları qəbul edilmiş, mühüm regional və beynəlxalq əhəmiyyətli layihələr, ölkə başçısının sədrliyi ilə ekoloji məsələlərə dair bir neçə müşavirə keçirilmişdir. 2010-cu ilin ölkəmizdə "Ekologiya ili" elan edilməsi və həmin ildən başlayaraq hər il Bakı şəhərində beynəlxalq ekologiya sərgilərinin keçirilməsi də bu sahənin inkişafına qayğının ifadəsidir.

Naxçıvan Muxtar Respublikasında da bu istiqamətdə həyata keçirilən ekoloji tədbirlər davamlı xarakter almışdır. Bu məqsədlə xüsusi dövlət proqramları qəbul edilmiş, ekoloji tədbirlərin icrası ilə əlaqədar müvafiq sərəncamlar imzalanmışdır.





Həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikamızda yaşıllıq ehtiyatları dəfələrlə artaraq ümumi ərazimizin 20 faizini təşkil etmişdir. Müqayisə üçün bildirək ki, 1995-ci ildə bu göstərici yalnız 1 faizə bərabər idi. Kontinental iqlim şəraiti olan regionumuzda meşə ehtiyatlarının bu qədər artması göstərilən qayğının və düzgün ekoloji tədbirlərin nəticəsidir. Xüsusilə regionun torpaq-iqlim xüsusiyyətlərinə uyğun olan tinglərin seçilməsi, yetişdirilməsi, müasir suvarma sistemlərinin qurulması və düzgün aqrotexniki qulluq bu sahədə inkişafa səbəb olmuşdur. Yaşıllaşdırma tədbirlərində regionun torpaq-iqlim şəraitinə uyğunlaşdırılmış ting yetişdirilməsi bu səmərəliliyi daha da artırır. Ötən illərdə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşə tingçiliyi müəssisəsində 12 milyona qədər müxtəlif növ tinglər yetişdirilmişdir. Müəssisə tərəfindən ildə 500 min ədəddən çox ting yetişdirilir.

Muxtar respublikamızda aparılan yaşıllaşdırma tədbirlərində ekoloji əhəmiyyətlə bərabər, iqtisadi səmərəlilik də əsas götürülərək meyvə bağlarının salınması sahəsində də tədbirlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012 və 2016-cı il tarixli sərəncamları ilə təsdiq edilmiş Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı dövlət proqramlarına uyğun olaraq yeni meyvə bağları salınıb. 5 min hektardan çox sahədə meyvə bağlarının əkilməsi Naxçıvanın tarixi meyvəçilik şöhrətinin yenidən qaytarılmasına zəmin yaratmışdır. Qeyd edək ki, yaşıllıqların salındığı ərazilərin çoxu kənd təsərrüfatı əkinləri üçün yararsız olan ərazilər, müxtəlif dərəcədə şoranlaşmış, eroziyaya uğramış, münbitliyini itirmiş torpaqlardır ki, bu da həmin ərazilərin yenidən bərpa olunmasına əlverişli şərait yaradacaqdır. Relyefi kənd təsərrüfatı əkinləri üçün əlverişli olmayan təpəlik ərazilərdə terras üsulu ilə yaşıllıqların salınması, səhralaşmaya meyilli, külək eroziyasına məruz qalan magistral yol kənarlarında, su eroziyasına məruz qalan çay vadilərində qoruyucu zolaqların salınması bu baxımdan xüsusilə əhəmiyyətli olmuşdur. Qeyd edək ki, transsərhəd Araz çayının Naxçıvanın torpaq hüdudlarını yuması, çay vadisinin ərazilərimizə doğru dəyişməsi kimi halların qarşısının alınması məqsədilə görülən mühəndis-texniki işlərlə bərabər, həmin ərazilərdə yulğunluqların qorunması və artırılması tədbirlərinin böyük əhəmiyyəti vardır.

Muxtar respublika ərazisində əlverişli ekoloji mühitin yaradılmasında mühüm amillərdən biri təbii mühit unikallığının, bitki və heyvan ehtiyatlarının qorunması və bərpa edilməsidir ki, bunun da əsasını xüsusi mühafizə olunan təbiət ərazilərinin (qoruq, milli park, yasaqlıq və sair) yaradılması təşkil edir. Qeyd edək ki, regionumuzda ilk xüsusi mühafizə olunan təbiət ərazisi hələ 1969-cu ildə ölkəmizdə ilk rəhbərliyi dövründə ulu öndər Heydər Əliyev tərəfindən 40 min hektar ərazidə yaradılan Ordubad Dövlət Təbiət Yasaqlığı olmuşdur. Ölkə ərazisində ilk milli park da Naxçıvanda, Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 16 iyun tarixli Sərəncamı ilə ərazisi 12 min 131 hektar olan Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı və ərazisi 3 min 139 hektar olan Şahbuz Dövlət Təbiət Qoruğu, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 23 sentyabr və 2009-cu il 22 iyun tarixli sərəncamları ilə "Arazboyu" (ərazisi – 9118 ha) və "Arpaçay" (ərazisi – 68911,18 ha) Dövlət Təbiət yasaqlıqları yaradılmışdır. Belə təbiət ərazilərinin yaradılmasında əsas məqsədlərdən biri də mövcud təbii potensialdan istifadə edərək ekoturizmin inkişaf etdirilməsidir. Bu baxımdan milli park statuslu təbiət obyektlərinin yaradılması müasir dövrümüzün tələblərinə cavab verir. Bu amil əsas götürülərək ölkə Prezidentinin 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə mövcud milli park, qoruq ərazilərinin sahəsi genişləndirilərək ümumi ərazisi 42 min 787 hektar olan Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı yaradılıb. Hazırda muxtar respublika ərazisinin 27 faizi xüsusi mühafizə olunan təbiət ərazilərinə daxildir. Qeyd edək ki, inkişaf etmiş, təbiətə xoş münasibət göstərilən ölkələrdə bu göstərici ümumi ərazilərin yalnız 10-15 faizini təşkil edir.

Xüsusi mühafizə edilən təbiət ərazilərinin yaradılması, təbiəti mühafizə sahəsində görülən kompleks dövlət tədbirləri nəticəsində əvvəllər sayı tükənməkdə olan (məsələn, bezoar dağ keçiləri, muflonlar) növlərin sayının artmasına, ərazilərimizdə yeni heyvan növlərinin yaşaması üçün əlverişli şəraitin formalaşmasına stimul yaratmışdır. Son illərdə muxtar respublika ərazisində dünyanın nadir növlərindən olan bəbirlərin müşahidə olunması dediklərimizə sübutdur. 1969-cu ildə ərazilərimizdə muflonların və bezoar dağ keçilərinin sayının azalması təhlükəsi olduğundan onların xüsusi qorunması, ovlanmasının qarşısının alınması məqsədilə Ordubad Dövlət Yasaqlığı yaradılmış, bu da həmin növlərin sayının dəfələrlə artmasına və nəsillərinin tükənmə təhlükəsinin aradan qalxmasına səbəb olmuşdur.

Fauna və flora ehtiyatlarının qorunması sahəsində görülən mühüm işlərdən biri də nadir və nəsli kəsilmək təhlükəsi olan növlərin öyrənilməsi və xüsusi qorunmasının təşkil olunmasıdır. Bunun üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair 2 cilddən ibarət "Qırmızı kitab"ı hazırlanmışdır.

Muxtar respublikamızın ərazisinin coğrafi mövqeyi, relyef xüsusiyyətləri, mövcud təbii-iqlim xüsusiyyətləri bu regionda kontinental iqlim şəraitini formalaşdırır. Bu iqlim şəraitinin öyrənilməsi məqsədilə hidrometeoroloji xidmət müasir dövrün tələblərinə uyğun təşkil edilmişdir. Xidmətin yaxşılaşdırılması üçün müasir avadanlıqlar alınmışdır.

Muxtar respublika ərazisində ətraf mühitin əsas komponentləri olan suyun ekoloji təmizliyinin qorunması və bərpa edilməsi sahəsində görülən işlər istər təsərrüfat, istərsə də içməli su kimi istifadə edilən suların kəmiyyəti ilə bərabər, keyfiyyətinin də artmasına şərait yaratmışdır. Dünyada yalnız bir neçə inkişaf etmiş ölkədə əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsi məqsədilə tətbiq olunan müasir sutəmizləyici qurğular sistemi muxtar respublikamızda da qurulmuşdur. İçməli su ilə bərabər, təsərrüfat sularına olan tələbatın təmin edilməsi sahəsində də mühüm işlər həyata keçirilir. Ərazilərin torpaq ehtiyatlarının münbitliyinin qorunması, relyef xüsusiyyətləri nəzərə alınaraq və sudan səmərəli istifadə edilməsi məqsədilə 1200 hektardan çox ərazidə damcılı suvarma sistemləri qurulmuşdur.

Muxtar respublikada uğurla həyata keçirilən sosial-iqtisadi siyasət çərçivəsində əlverişli iqlim amillərindən də səmərəli istifadə edilir. Belə ki, son illər muxtar respublikamızda günəş panellərinin qurulması və elektrik enerjisinin istehsalı iqtisadiyyatın inkişafına mühüm töhfədir. Bununla da, atmosferə mənfi təsir göstərən qaz-turbin və modultipli elektrik stansiyalarının yerini tullantısız və ziyansız günəş panelləri tutur. İqlim dəyişkənliyi nəticəsində yaranan küləklərin də gücündən istifadə edilməklə elektrik enerjisi istehsal edən külək turbinlərinin quraşdırılması da diqqətdə saxlanılır.

Muxtar respublika ərazisində xüsusi gözəlliyi ilə seçilən təbiət guşələri, yüzillik yaşı olan ağaclar, şəlalələr, mağaralar, elmi, təcrübi, tarixi əhəmiyyətə malik olan obyektlərin, təbiət komplekslərinin abidə kimi daha yaxşı mühafizə olunması üçün onların xüsusi pasportları hazırlanmış və qeydiyyatı aparılmışdır. Müasir dünyamızda turizmin ən çox maraq göstərilən sahəsi olan ekoturizmin, kənd turizminin əsasını qeyd olunan təbii zənginliklər təşkil edir. Bunun üçün təbiət abidələrinin qorunması həm ekoloji, həm də mühüm iqtisadi əhəmiyyətə malikdir.

Məlumdur ki, təbiəti təkcə ekoloji tədbirlərlə, inzibatçılıqla qorumaq mümkün deyil. Böyük təbiətşünas-alim akademik Həsən Əliyev deyirdi ki, təbiətin keşiyində durmaq üçün sözün gücündən istifadə etmək lazımdır. Əgər insan bilsə ki, təbiətə vurduğu ziyan hansı fəlakətlərə səbəb olur, onda bu işləri heç vaxt görməz. Bu sahənin əhəmiyyəti nəzərə alınaraq qəbul edilmiş "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Qanuna uyğun olaraq ekoloji təbliğat və maarifləndirmə sahəsində də fəaliyyət davamlı olaraq həyata keçirilməkdədir.

*Beləliklə, ümummilli lider Heydər Əliyevin* ***"Mən istəyirəm ki, hamınız təbiəti qoruyanlar olasınız"*** *fikrinin əsas istiqamətverici xətt olaraq götürüldüyü Naxçıvanda davamlı inkişafın təmin edilməsi üçün iqtisadi inkişafla yanaşı, ekoloji tarazlığın qorunması da qarşıya qoyulan məqsəd olmaqla milli inkişaf strategiyamızın gələcəyinə daha böyük ümidlə baxmağa imkan yaradır.*

**Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti**

# Onlayn konfrans keçirilib

*"Naxçıvan" Universiteti və Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin birgə təşkilatçılığı ilə "Uşaq hüquqlarının sosial və hüquqi tərəfləri" mövzusunda onlayn konfrans keçirilib.*



Konfransı giriş sözü ilə ali təhsil ocağının rektoru, dosent Nurlana Əliyeva açaraq bildirib ki, uşaq hüquqlarının müdafiəsinin hərtərəfli təmin olunması ölkəmizdə uğurla həyata keçirilən dövlət siyasətinin ayrılmaz tərkib hissəsidir. Uşaqların keyfiyyətli təhsil almaları, yüksək dünya standartlarına cavab verən tibbi xidmətlərlə təmin edilmələri, hərtərəfli qayğı ilə əhatə olunmaları, onlar üçün zəruri şəraitin yaradılması, böyüməkdə olan nəslin layiqli vətəndaş kimi formalaşması ölkəmizdə dövlət uşaq siyasətinin başlıca prinsiplərindəndir.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət şöbəsinin rəisi, baş ədliyyə müşaviri Səttar Zamanov bildirib ki, muxtar respublikada uşaqlara hərtərəfli diqqət və qayğı göstərilir, yaxşı təhsil almaları, layiqli vətəndaş kimi formalaşmaları istiqamətində bir çox işlər görülür, müasir avadanlıqlarla, kitabxanalarla, idman zalları və müasir kompüter dəstləri ilə təchiz olunmuş yeni məktəb binaları tikilərək istifadəyə verilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası" təsdiq edilmiş, uşaq hüquqlarının müdafiəsi üçün dövlət qurumları arasında koordinasiya və nəzarət sistemi təkmilləşdirilmiş, monitorinq qrupu yaradılmışdır.

Sonra Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşları – Reyhan Sadiqova, Həbibə Əliyeva və Rəşad Allahverdiyevin, "Naxçıvan" Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müəllimləri Gülçin Ağayeva, Aysel Abbasova və Nuray Hacıyevanın çıxışları dinlənilib.

Sonda konfrans iştirakçılarının sualları cavablandırılıb.

**Seyfur HACIMURADOV**


ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 379